Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
______________dos. Zaur Məmmədov
"____" ______ 2026-cı il

**Fənn sillabusu**

**İxtisasın şifri və adı:** 6001009 İbtidai sinif müəllimliyi (A+B)
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** Pedaqogika (Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 04 sentyabr 2024-cü il tarixli 3-29/3-2-575 F/2024 №-li əmri ilə təsdiq edilmişdir.)
**Kodu:** İPF-B01
**Tədris ili:** 2025/2026
**Semestr:** IV (yaz)
**Tədris yükü:** Cəmi 180 saat. Auditoriya saatı – 60 (30 saat mühazirə, 30 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** m.Nuriyeva Arzu Mirzağa qızı
b/m.Həbibova Nərminə Əhmədağa qızı
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Ə.Məmmədov küçəsi 19,LDU-nun 2 saylı tədris binası
**Məsləhət günləri və saatı:** 1 ci gün saat 09.00-10.00
**E-mail ünvanı:** arzu.agayeva.1990@inbox.ru
**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas:**

1. H.Əhmədov, N.Zeynalova Pedaqogika Bakı, 2019
2. Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadov Kurikulum bələdçisi: izahlar və tətbiqlər Bakı, 2020
3. F.İbrahimov, R.Hüseynzadə. Pedaqogika. I-II cild. Bakı, 2013
4. L.Qasımova. Pedaqogika. Bakı, 2012
5. M.İsmixanov. Pedaqogikanın əsasları. Bakı, 2008
6. F.Allahverdiyeva, S.Tağıyeva. Pedaqogika. Bakı, 2018

**Əlavə:**

7. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu.Bakı, 2009
8. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 sentyabr 2020-ci il 361 saylı qərarı.
9. İ.Həsənov, A.Rüstəmova, N.Babayeva Kurikulum Bakı,2023
10. A.Qəhrəmanov "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı, 2012
11. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası //Azərbaycan məktəbi, 2013, № 5.

**IV. Prerekvizit fənlər:** Pedaqogika-1
**V. Korekvizit fənlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**

Pedaqogika tədris kursu"Pedaqogika,psixologiya və incəsənət" kafedrası nəzdində pedaqoji yönümlü ixtisasların tədris planı çərçivəsində işlənmişdir.Tədris planına uyğun olaraq bu kurs bakalavr səviyyəsinin tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun tədrisi II tədris ilinin IV semestrində (30 saat mühazirə,30 saat seminar) nəzərdə tutulur.
Kursun tədrisində məqsəd tələbələrə pedaqogika elminin təşəkkülü və inkişaf tarixi haqqında məlumat verilməsi, təlim, tərbiyə, təhsil, inkişaf anlayışlarının mahiyyətinin və bu proseslərlə əlaqədar kriteriyaların izah olunmasıdır.
Kursun tədrisi üçün ayrılan saatlar dairəsində müasir məktəbin məqsədi, müəllimin pedaqoji qabiliyyətlərinin xarakterik cəhətləri açıqlanır. Bununla yanaşı, Azərbaycan Respublikasının təhsil sistemi və kurikulum haqqında məlumat, şəxsiyyətin inkişafının ümumi qanunauyğunluğu, təlim prosesinin idraki və psixoloji əsasları, təlimin prinsipləri, metodları və təşkili formalarının, yeni təlim texnologiyalarının əsas mahiyyəti, pedaqoji proses, pedaqoji innovasiyalar, təlimin amilləri,öyrənmə motivasiyası, təlimin diaqnostikası məsələləri izah olunur, tərbiyənin mahiyyəti, məzmunu və xüsusiyyətlərinə aid müasir cəmiyyət quruculuğu ilə bağlı məlumatlar çatdırılır, məktəbdə metodik işlərin, məktəbşünaslığın pedaqoji əsasları təsvir edilir.

**VII. Davamiyyətə verilən tələblər:**
Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**
Fənn üzrə tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Yəni tələbələrin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı ( 50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə görə verilir.
Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:
- 20 bal-seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal-kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.
İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.
Qiymət meyarları aşağıdakılardır:
- 10 bal-tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal-tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal-tələbənin cavabı əsasən düzgündür;
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal-tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal-tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal-tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal-suala cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın miqdarı) 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı(göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:**
Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:**
Mühazirə: 30 saat; Seminar: 30 saat; **Cəmi: 60 saat**

| № | Tədris olunan mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1. | **Mövzu №1.** Pedaqogikanın predmeti və vəzifələri<br>**Plan:**<br>1. Pedaqogika elminin yaranması və inkişafı.Pedaqogika elminin obyekti, predmeti və əsas kateqoriyaları.<br>2. Pedaqogikanın anlayışlar sistemi: təlim, tərbiyə, təhsil, inkişaf, pedaqoji proses<br>3. Pedaqogikanın mənbələri və vəzifələri<br>4. Pedaqoji elmlər sistemi<br>5. Pedaqogikanın tədqiqat metodları<br>**Mənbə:** [1;3;4;6] | 2 | 2 | |
| 2. | **Mövzu №2.** Şəxsiyyətin inkişafının ümumi qanunauyğunluqları<br>**Plan:**<br>1. Şəxsiyyətin inkişafı prosesi və onun əsas istiqamətləri Şəxsiyyətin inkişafına dair nəzəriyyələr<br>2. Şəxsiyyətin inkişafında irsiyyətin rolu<br>3. İnsanın inkişafı və formalaşmasında mühitin rolu<br>4. Şəxsiyyətin formalaşmasında təhsil-tərbiyənin rolu<br>5. Şəxsiyyətin inkişafının yaş və fərdi xüsusiyyətləri<br>**Mənbə:** [1;2;3;7] | 2 | 2 | |
| 3. | **Mövzu №3.** Pedaqoji proses<br>**Plan:**<br>1. Pedaqoji prosesin mahiyyəti<br>2. Pedaqoji prosesin mərhələləri<br>3. Pedaqoji prosesin qanunauyğunluqları<br>**Mənbə:**[1;2;3;8;9] | 2 | 2 | |
| 4. | **Mövzu №4.** Müasir məktəbin müəllimi | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | **Plan:**<br>1. Müəllimin funksiyaları<br>2. Müəllimin pedaqoji bacarıq və qabiliyyətləri.<br>3. Müəllimin pedaqoji ustalığı və pedaqoji mərifəti.<br>4. Təhsilverənlərin etik davranışprinsipləri<br>**Mənbə:** [1;2;4;7;8;10;11] | | | |
| 5. | **Mövzu №5.** Azərbaycan Respublikasının təhsil sistemi<br>**Plan:**<br>1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri<br>2. Azərbaycan Respublikasının təhsil sisteminin quruluşu<br>3. Azərbaycanda kurikulum islahatı<br>**Mənbə:**[2;7;8;9;10;11] | 2 | 2 | |
| 6. | **Mövzu №6.** Didaktika. Təhsil və təlim nəzəriyyəsi<br>**Plan:**<br>1. Didaktikanın mahiyyəti və elmi nəzəri əsasları<br>2. Təlimin mahiyyəti<br>3. Təhsil anlayışının mahiyyəti və məzmunu<br>4. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları<br>4. Təhsilin məzmununu əks etdirən sənədlər<br>**Mənbə:** [1;2;3;8] | 2 | 2 | |
| 7. | **Mövzu №7.** Təlimin prinsipləri<br>**Plan:**<br>1. Təlimin ümumi qanunları (qanunauyğun əlaqələri)<br>2. Təlim prinsiplərinin təsnifatı<br>3. Təlim prinsiplərinin səciyyəsi və vəhdəti: təlimin həyatla əlaqələndirilməsi prinsipi; təlimin təhsilverici, tərbiyəedici və inkişafetdirici prinsipi; elmilik prinsipi; təlimdə Təlimdə sistematiklik və ardıcıllıq prinsipi; təlimdə əyanilik prinsipi; təlimdə şüurluluq, fəallıq və müstəqillik prinsipi; təlimin optimal təşkili prinsipi; təlimin müvafiqlik prinsipi<br>**Mənbə:** [1;3;5;6;9] | 2 | 2 | |
| 8. | **Mövzu №8.** Təlimin metodları<br>**Plan:**<br>1. Təlim metodları anlayışı və onların təsnifatı.<br>2.Təlimin metodlarının səciyyəsi və əlaqəli tətbiqi: təsəvvürlərin formalaşdırılması (qavrama) metodları; nəzəri biliyin (anlayış və qanunların) mənimsədilməsi metodları; bacarıq və vərdişlərin formalaşdırılması (tətbiqetmə) metodları; təlimdə nəzarət metodları<br>3. Fəal və interaktiv təlim metodları<br>**Mənbə:** [2;3;5;6;8;10;11] | 2 | 2 | |
| 9. | **Mövzu №9.** Təlimin növləri və təşkili formaları<br>**Plan:**<br>1. Təlimin növləri: izahlı-illüstrativ təlim (ənənəvi təlim); problemli təlim; proqramlaşdırılmış təlim; kompüter təlimi. Təlimdə müxtəlif yanaşmalar: passiv ənənəvi təlim;müasir fəal təlim;yeni interaktiv təlim.<br>2. Təlimin təşkili formalarının tarixi<br>3. Dərs təlimin əsas təşkili forması kimi. Müəllimin dərsə hazırlaşması,onun mərhələləri.Müasir dərsə verilən tələblər. | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | 4. Təlimin təşkilinin digər formaları<br>**Mənbə:** [1;2;4;3;5;6] | | | |
| 10. | **Mövzu №10.** Təlimdə diaqnostika, nəzarət və qiymətləndirmə<br>**Plan:**<br>1. Şagirdin öyrənmə səviyyəsinin diaqnostikası<br>Şagirdlərin yetirməsinin diaqnostikasının və ona nəzarətin prinsipləri: obyektivlik, sistemativlik, əyanilik (aşkarlıq), bərabərlik, ədalətlilik,şəffavlıq,Məqsədəuyğunluq, konfidensiallıq, əməkdaşlıq, effektivlik,validlik(uyğunluq),etibarlılıq. Yoxlama və nəzarət.<br>2. Şagirdlərin bilik və bacarıqlarının diaqnostlaşdırılması, yoxlanılması və qiymətləndirilməsinin ardıcıllığı:cari yoxlama; təkrar yoxlama; dövri yoxlama; yekun yoxlama. Kompleks yoxlama<br>Şagirdlərin öyrənmə səviyyəsini yoxlamanın köməyi ilə, həyata keçirilən nəzarət formaları: ilkin, cari, tematik və yekun nəzarət.<br>3. Qiymətləndirmənın ümumi prisipləri.Qiymətləndirmə motivləri.Qiymətləndirmə standartları Qiymətləndirilməsinin səviyyələri.<br>**Mənbə:** [2;3;8;9;10] | 2 | 2 | |
| 11. | **Mövzu №11.** Tərbiyə nəzəriyyəsi. Tərbiyə prosesinin mahiyyəti və xüsusiyyətləri<br>**Plan:**<br>1. Tərbiyənin mahiyyəti və hərəkətverici qüvvələri<br>Tərbiyənin dialektik səciyyə daşıması: tərbiyə daim inkişaf edən prosesdir; tərbiyədə subyekt və obyekt qrşılıqlı vəhdət təşkil edir; ziddiyətlər daim tərbiyənin hərəkətverici qüvvəsi kimi çıxış edir; tərbiyə, özünütərbiyə və yenidəntərbiyə dialektik vəhdətdədir.<br>2.Tərbiyədə məqsəd anlayışı.Özünütərbiyə. Yenidəntərbiyə.<br>3. Tərbiyənin xüsusiyyətləri: tərbiyə çoxamilli prosesdir; tərbiyə uzun sürən və fasiləsiz prosesdir; tərbiyə çoxcəhətli, eyni zamanda bütöv prosesdir; tərbiyədə xırda məsələ yoxdur; tərbiyə özünütərbiyə və yenidəntərbiyə ilə dialektik vəhdət təşkil edir.<br>4. Tərbiyənin məzmunu:əqli tərbiyə; ideya-siyasi tərbiyə; əxlaq tərbiyəsi; əmək tərbiyəsi; estetik tərbiyə; fiziki tərbiyə; hüquq tərbiyəsi, iqtisadi və ekoloji tərbiyə.<br>**Mənbə:** [1;2;3;8;9] | 2 | 2 | |
| 12. | **Mövzu №12.** Tərbiyənin prinsipləri<br>**Plan:**<br>1. Tərbiyənin qanunauyğunluqları və qanunları<br>2. Tərbiyə prinsiplərinintəsnifatı:tərbiyədə məqsədyönlülük prinsipi; tərbiyənin həyatla, cəmiyyət quruculuğu ilə əlaqəsi prinsipi; tərbiyədə yaşauyğunluq, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi; tərbiyədə nikbinlik prinsipi; tərbiyədə hörmət və tələbkarlığın vəhdəti prinsipi; şüurla davranışın vəhdəti prinsipi; | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | şəxsiyyətin kollektivdə və kollektiv vasitəsilə tərbiyəsi prinsipi; tərbiyədə pedaqoji rəhbərliklə insanın təşəbbüs və özfəaliyyətinin əlaqələndirilməsi (əməkdaşlıq) prinsipi.<br>3. Tərbiyə prinsiplərinin səciyyəsi və qarşılıqlı əlaqəsi<br>**Mənbə:** [1;3;5;7;8;9] | | | |
| 13. | **Mövzu №13.** Tərbiyənin metodları<br>**Plan:**<br>1. Tərbiyə metodları haqqında anlayış.<br>2. Şüuru formalaşdıran metodlar<br>3. Fəaliyyətin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlar<br>4. Fəaliyyət və davranışı stimullaşdıran metodlar<br>5. Tərbiyədə nəzarət, özünənəzarət və özünəqiymət metodları.<br>**Mənbə:** [1;2;3;6;7;8;9] | 2 | 2 | |
| 14. | **Mövzu №14.** Tərbiyənin tərkib hissələri<br>**Plan:**<br>1.Dünyagörüşü haqqında anlayış.Əqli tərbiyənin məzmunu və vəzifələri.<br>2. İdeya-mənəvi və əxlaq tərbiyəsi mahiyyəti və vəzifələri<br>3. Əmək və iqtisadi tərbiyənin məqsəd və vəzifələri<br>4.Estetik tərbiyə və fiziki tərbiyənin mahiyyəti və məzmunu<br>5. Ekoloji tərbiyə və hüquq tərbiyəsi<br>6. İctimai tərbiyə və ailə tərbiyəsi<br>**Mənbə:** [1;3;5;6;8;9] | 2 | 2 | |
| 15. | **Mövzu №15.** Məktəbdə metodik iş<br>**Plan:**<br>1. Məktəbdə metodik işin əhəmiyyəti və formaları. Fənn metodbirləşmələri. Məktəbin tədris işlərinə nəzarət.<br>2. Müəllimlərin ixtisasının artırılması yolları.<br>3. Müəllimlərin attestasiyası və onun əhəmiyyəti.<br>**Mənbə:** [1;3;4;6;8;11] | 2 | 2 | |
| | **Cəmi** | **30saat** | **30saat** | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
- informasiya mənbəyi ilə işin bacarıq və vərdişi;
- müqayisə, ümumiləşdirmə və sistemləşdirmə;
- konkretləşdirmə, sübut və rəddetmə, ziddiyyətləri görmə bacarığı;
- təhliletmə bacarıq və vərdişlərin formalaşdırılması.

Öyrənən tanış olur:
- ümumpedaqoji bacarıq və vərdişlərlə;
- müasir təlim prinsip və metodları ilə;
- müasir dərsə verilən pedaqoji tələblərlə;
- yeni təlim texnologiyaları ilə;
- tərbiyənin məqsədi və hərəkətverici qüvvələri ilə;
- tərbiyənin məzmunu və xüsusiyyətləri ilə;
- məktəbi idarəetmə və məktəbdə metodik işlərin təşkili yolları ilə.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**
- mühazirə,seminar,praktiki tapşırıqlar;
- təqdimat və müzakirə;
- debat;
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlimin nəticələri:**

**FTN 1.** Cəmiyyətdə müəllimlik peşəsinin sosial əhəmiyyətini dərk edir;
**FTN 2**. Təlim, tərbiyə və sosiallaşma prosesinin nüfuz etdiyi müxtəlif kontekstləri (sosial, mədəni, milli) izah edir;
**FTN 3**. Peşə vəzifələrini yerinə yetirmək üçün pedaqoji və psixoloji diaqnostik metodlardan istifadə edir;
**FTN 4.**Pedaqoji prosesin təşkilində müasir texnologiyalardan istifadə etməklə dərsin strukturunu qurur;
**FTN 5.** Müasir təhsil konsepsiyalarını sistemli şəkildə təhlil edir;
**FTN 6**. Pedaqoji fəaliyyətin subyektləri ilə əməkdaşlıq münasibətləri qurur;
**FTN 7.** Pedaqoji cəhətdən məqsədyönlü, psixoloji cəhətdən təhlükəsiz təhsil mühiti yaradır;
**FTN 8**. Təhsilalanların sinifdənkənar fəaliyyətini təşkil edir;
**FTN 9**.Müasir təhsil quruculuğunda və məktəb sistemində keçmişin mütərəqqi irsindən, pedaqoq və mütəfəkkirlərin bu günümüz üçün dəyərli ideyalarından müqayisəli şəkildə istifadə edir.

**XIV.Tələbələrin fənn haqqında fikirlərinin öyrənilməsi**

__________________________________________________

________________________________

**XV. Kollokvium sualları:**

**I. Kollokvium sualları**

1. Pedaqogika elminin obyekti, predmeti və əsas kateqoriyaları
2. Pedaqogika elminin anlayışlar sistemi
3. Pedaqogikanın mənbələri və vəzifələri
4. Pedaqoji elmlər sistemi
5. Pedaqogika elminin tədqiqat metodları
6. Şəxsiyyət və onun inkişafı
7. Şəxsiyyətin inkişafında yaş dövrləri və yaş xüsusiyyətləri
8. Pedaqoji prosesin mahiyyəti və mərhələləri
9. Müəllimin funksiyaları
10. Müəllimin pedaqoji bacarıq və qabiliyyətləri
11. Təhsilverənlərin etik davranış prinsipləri
12. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu
13. Azərbaycan Respublikasında təhsil sisteminin quruluşu
14. Azərbaycanda kurikulum islahatı
15. Fənn kurikulumu və onun strukturu

**II. Kollokvium sualları**

1. Didaktikanın mahiyyəti və elmi nəzəri əsasları
2. Təhsil anlayışının mahiyyəti və məzmunu
3. Təhsilin məzmununu əks etdirən sənədlər

4. Təlimin mahiyyəti
5. Təlimin prinsiplərinin təsnifatı və mahiyyəti
6. Təlim prinsiplərinin səciyyəsi və vəhdəti
7. Təlimin metodları anlayışı və onların təsnifatı
8. Təlim metodlarının səciyyəsi
9. Təlimin təşkili formalarının tarixi
10. Dərs-təlimin əsas təşkili forması kimi
11. Dərsə verilən müasir tələblər
12. Təlimin təşkilinin digər formaları
13. Təlimdə nəzarət və qiymətləndirmə
14. İnteraktiv və fəal təlim metodları
15. Tərbiyə prosesinin mahiyyəti və məzmunu

## XVI. İmtahan sualları:

1. Pedaqogika elminin obyekti, predmeti və əsas kateqoriyaları
2. Pedaqogika elminin anlayışlar sistemi
3. Pedaqogikanın mənbələri və vəzifələri
4. Pedaqoji elmlər sistemi
5. Pedaqogika elminin tədqiqat metodları
6. Şəxsiyyət və onun inkişafı
7. Şəxsiyyətin inkişafında yaş dövrləri və yaş xüsusiyyətləri
8. Pedaqoji prosesin mahiyyəti və mərhələləri
9. Müəllimin funksiyaları
10. Müəllimin pedaqoji bacarıq və qabiliyyətləri
11. Təhsilverənlərin etik davranış prinsipləri
12. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu
13. Azərbaycan Respublikasında təhsil sisteminin quruluşu
14. Azərbaycanda kurikulum islahatı
15. Fənn kurikulumu və onun strukturu
16. Didaktikanın mahiyyəti və elmi nəzəri əsasları
17. Təhsil anlayışının mahiyyəti və məzmunu
18. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları
19. Təhsilin məzmununu əks etdirən sənədlər
20. Təlim prosesinin mahiyyəti
21. Təlimin prinsiplərinin təsnifatı və mahiyyəti
22. Təlim prinsiplərinin səciyyəsi və vəhdəti
23. Təlimin metodları anlayışı və onların təsnifatı
24. Təlim metodlarının səciyyəsi
25. Təlimin təşkili formalarının tarixi
26. Dərs-təlimin əsas təşkili forması kimi
27. Dərsə verilən müasir tələblər
28. Təlimin təşkilinin digər formaları
29. Təlimdə nəzarət və qiymətləndirmə
30. İnteraktiv və fəal təlim metodları
31. Tərbiyə prosesinin mahiyyəti və məzmunu
32. Tərbiyənin xüsusiyyətləri
33. Tərbiyənin prinsiplərinin mahiyyəti və təsnifatı
34. Tərbiyənin prinsiplərinin səciyyəsi və qarşılıqlı əlaqəsi
35. Tərbiyə metodları haqqında anlayışı
36. Tərbiyədə şüuru formalaşdıran metodlar (inandırma)
37. Tərbiyədə fəaliyyətin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlar (alışdırma)

38. Tərbiyədə fəaliyyət və davranışı stimullaşdıran metodlar (rəğbətləndirmə və cəzalandırma)
39. Tərbiyənin tərkib hissələrinin mahiyyəti və təsnifatı
40. Məktəbdə metodik işin təşkili formaları

**"Pedaqogika" fənninin sillabusu 6001009 - "İbtidai sinif müəllimliyi" ixtisasının təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.Sillabus "Pedaqogika, psixologiya və incəsənət" kafedrasında müzakirə edilərək təsdiq edilmişdir.**
**(13 fevral 2026-cı il, protokol № 6).**

Fənn müəllimləri: m.A.M.Nuriyeva
b/m.N.Ə.Həbibova

Kafedra müdiri: dos.A.X.Əliyev